# Azərbaycan Qarabağı yenidən qurmaqla tarixi ədalətin bərpasını davam etdirir

***Vətən müharibəsində əldə edilən parlaq qələbəmizdən sonra respublikamızın qarşısında duran ən ümdə məsələ bu zəfərin əbədiləşdirilməsi üçün doğma torpaqlarından 30 ilə yaxın uzun bir müddətdə köçkün düşən insanların öz yurdlarında məskunlaşmasını təmin etməkdir. Bunun üçün artıq bir ildən çoxdur ki, bərpa-quruculuq prosesinə başlanılıb.***



Azərbaycan Prezidenti İlham Əliyev düşməndən təmizlənən torpaqlarda bütün layihələrin ardıcıllıqla reallaşdırılacağını, birincisi, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün ərazilərin minalardan təmizlənəcəyini, infrastruktur tədbirlərinin icra ediləcəyini bildirib. Bu işlərin paralel şəkildə həyata keçirilməsi isə ilk günlərdən diqqət mərkəzində saxlanılıb.

İşğaldan azad olunan ərazilərdə hazırda sosial infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunması üçün dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb edilir. Böyük quruculuq layihələrinə dost ölkələrin qoşulması siyasəti isə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin düşməndən təmizlənən rayonlara səfərləri göstərir ki, Azərbaycan dövləti ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını xüsusi diqqət mərkəzində saxlayır. Ölkə rəhbəri tərəfindən hazırda erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi, Qarabağ bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində önəmli tədbirlərin gerçəkləşdirilməsi də məhz bunun bariz ifadəsidir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işləri sürətlə aparılır. İşğaldan azad edilən ərazilər hazırda möhtəşəm tikinti meydanı kimi diqqət çəkir. Düşməndən təmizlənən torpaqlarda infrastrukturun yaradılması, vaxtilə mövcud olmuş magistralların yenidən qurulması və yeni yolların çəkilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu sahənin inkişafı şəhər və kəndlərin salınmasını, məskunlaşmanın gerçəkləşdirilməsini şərtləndirir.

İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və yüksək texnologiyalar əsasında, o cümlədən "ağıllı" texnologiyalar bazasında müasir kəndlərin salınması, şəhərlərin yenidən qurulması bu bölgəni təkcə ölkəmizdə yox, dünyada dinamik və sürətlə inkişaf edən bir diyara çevirəcək. Rəsmi açıqlamalara görə, yaxın zamanlarda Qarabağ ərazilərinə Böyük Qayıdışa başlanılacaq, regionun daimi sakinlərinin özlərinin ata-baba torpaqlarına dönüşünə start veriləcək. Bu, ən mühüm hadisə kimi müasir Azərbaycan tarixinə yazılacaq. Bununla Azərbaycanda otuz il müddətində davam edən məşəqqətli qaçqınlıq həyatına, nəhayət ki, son qoyulması prosesi başa çatacaq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müasir texnika və texnologiya ilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və digər resurslardan səmərəli istifadə etməyə imkanı olan müxtəlif fəaliyyət sahələri üzrə subyektlərin yaradılması bölgənin dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə əsaslı müsbət təsir göstərəcək. Bu əminliyin də maddi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə öz doğma yurdlarına qayıdan fədakar və məğrur insanlar təşkil edəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayılda təməllərini qoyduğu hava limanları, yaşayış məskənləri, tunellər, yollar, Ağdamda yaradılacaq Sənaye Parkı, Cəbrayılda inşasına başlanmış "KamAz" Regional Xidmət Mərkəzi, Araz Vadisi İqtisadi Zonası, Kəlbəcərdə məskunlaşmış heyvandarlıq və arıçılıq təsərrüfatları Qarabağın müasir həyatının reallıqlarıdır.

Zəngilanın Ağalı kəndində Azərbaycanda ilk dəfə "Ağıllı kənd" layihəsi sürətlə həyata keçirilir. Təməli ötən il aprelin 26-da dövlətimizin başçısı tərəfindən qoyulan layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından yararlanmaqla tam izolyasiya olunan 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının inşası davam etdirilir.

"Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq. Burada aqrar sektorun təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək.

***İbrahimxəlil İBRAHİMOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti***

Xalq qəzeti.- 2022.- 11 mart.- S.4.